**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 27 oktyabr 2014-cü il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ölkədə sənayenin inkişafı sahəsində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün 2014-cü ildə "Sənaye qrantı" məqsədli müsabiqəsinin (EİF/MQM/Sənaye-2014-4(19)) keçirilməsi haqqında

## E L A N

"Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 212 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 12 mart tarixli 331 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın "Sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi" bölməsinin "Sənayenin inkişafı sahəsində aparılan elmi araşdırma və tədqiqatların dəstəklənməsi" maddəsinə uyğun olaraq, ölkə sənayesinin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi, iqtisadiyyatın sənayeləşməsinin sürətləndirilməsi, sənayenin inkişafı üçün mövcud potensialdan daha səmərəli istifadə edilməsinə yönəlmiş əhəmiyyətli elmi-tədqiqat layihələrinin və tədbirlərinin qrantlar yolu ilə maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra: "Elmin İnkişafı Fondu") 2014-cü ildə məqsədli "Sənaye qrantı" müsabiqəsini (EİF/MQM/Sənaye-2014-4(19)) aşağıdakı şərtlər daxilində

ELAN EDİR:

**Müsabiqənin prioritetləri:**

1. Sənayenin elmi-nəzəri və texnoloji problemləri;
2. Sənayenin modernləşdirilməsi, infrastruktur təminatının yaxşılaşdırılması və qeyri-neft sanəyesinin şaxələndirilməsi problemləri;
3. Ölkə sənayesinin innovasiya və investisiya potensialının yüksəldilməsi, innovativ texnologiyaların tətbiqi imkanları və innovasiyalar əsasında inkişafı təmin edəcək imkanların formalaşdırılması, ölkə sənayesinə daxili və xarici investisiyaların cəlb edilməsi (sənaye parkları timsalında) problemləri;
4. Rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, idxal olunan sənaye məhsullarının əvəzlənməsi və ixrac qabiliyyətinin artırılması, yerli istehsalın dəstəklənməsi və sənaye məhsullarının rəqabətqabiliyyətinin artırılması problemləri;
5. Sənayedə keyfiyyətin idarə olunması sistemlərinin effektiv tətbiqi məsələləri, sənayenin mövcud strukturunun təkmilləşdirilməsi və optimallaşdırılması məsələləri, ölkə sənayesinin klasterlər üzrə inkişaf etdirilməsi problemləri;
6. Müasir neft-qaz emalı və neft-kimya komplekslərinin, alternativ enerji qurğu və avadanlıqlarının, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan yeni sənaye sahələrinin yaradılması problemləri;
7. Mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, yeni prioritet istehsal sahələrinin, sənaye zonaları və texnologiyalar parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi və ixtisaslaşdırılmış sənaye zonalarının yaradılması məsələləri;
8. Azərbaycanda sənaye sahəsində vəziyyətin qiymətləndirilməsi, ölkə sənayesinin ənənəvi sahələrinin (kimya, metallurgiya, maşınqayırma, yüngül, aqrar, ağac emalı və mebel istehsalı, tikinti-inşaat materialları və s. sahələr) inkişaf etdirilməsi məsələləri, əczaçılıq, maşın və avadanlıq və s. istehsalı sahələrinin inkişaf perspektivləri;
9. Sənaye üzrə “elm-təhsil-istehsalat” zəncirinin yaradılması problemləri;
10. Sənaye üzrə elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması problemləri.

**Elmin İnkişafı Fondu tərəfindən müsabiqə üzrə maliyyələşdirmənin cəmi həcmi 500 000 (beş yüz min) manat nəzərdə tutulmuşdur.**

**Müsabiqəyə maliyyə həcminə görə aşağıdakı növ layihələr qəbul olunur:**

- Orta (10 000 – 50 000 manat arasında) maliyyə həcmli layihələr;
- Böyük (50 000 – 100 000 manat arasında) maliyyə həcmli layihələr.

**Xarakterinə görə aşağıdakı növ layihələr qəbul olunur**:

- Fundamental-tətbiqi;
- Axtarış-innovasiya.

Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi müsabiqənin keçirilməsinə, ekspertiza işinin həyata keçirilməsinə təşkilati dəstək göstərəcəkdir.

Müsabiqədə AMEA təşkilatlarından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdindəki elmi-tədqiqat və digər qurumlardan, QHT-lərdən, sənaye ilə əlaqəli qurumlardan alim və mütəxəssislər, fərdi şəkildə alimlər iştirak edə bilərlər.

**Elmin İnkişafı Fondunun hal-hazırda yerinə yetirilən digər layihələrində iştirak edən layihə rəhbərləri və icraçıları "Sənaye qrantı" müsabiqəsində iştirak edə bilməzlər.**

Tətbiqi gözlənilən layihələrə və müvəqqəti yaradıcı kollektivləri adıçəkilən müxtəlif qurumların nümayəndələrindən təşkil olunmuş layihələrə üstünlük veriləcəkdir.

Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

Müsabiqə bitdikdən sonra uğurlu layihələrin nəticələri üzrə məqalələr toplu (kitab) şəklində çap olunacaqdır.

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar **2014-cü il 28 oktyabr** tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2014-cü il 28 noyabr** saat 17:00-dır.

Müsabiqənin nəticələrinin 2014-cü ilin dekabr ayında açıqlanması planlaşdırılır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının (http://sdf.gov.az) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, **Azərbaycan** (2 nüsxə) və **ingilis** (1 nüsxə) (xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Müşayiətedici materiallar (sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə, ingilis dilində isə 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
- və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF/MQM/Sənaye-2014-4(19) - *Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*").

Layihənin elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir.

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: 563-61-11, elektron poçt ünvanı: qrant@elmfondu.az

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***